**Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansı (GANHRI) ilə əməkdaşlıq**

Azərbaycan Ombudsman İnstitutu ilk dəfə 27 oktyabr 2006-cı ildə Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansı (GANHRI) (keçmiş Milli İnsan Hüquqları Təşkilatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi – ICC) tərəfindən "A" statusu ilə akkreditasiya olunmuşdur.

2010-cu il tarixdə Ombudsman təsisatı ilə bağlı GANHRI-nin Akkreditasiya üzrə Alt Komitəsi tərəfindən növbəti akkreditasiya prosesi başladılmışdır. Həmin proses zamanı Komitə ilə Ombudsman Aparatı arasında 18 ay davam edən yazışmalar və canlı müsahibələr aparılmışdır. Nəyahət 2012-ci ilin mart ayında Komitə təsisatın "A" statusunu yenidən təsdiqləmiş, onun Paris Prinsiplərinə tam uyğun olduğunu qəbul etmişdir. Komitə bununla bağlı hesabatında həmçinin Ombudsmanın fəaliyyətinə dair tövsiyələrə də yer vermişdir.

Ombudsman 13 mart 2014-cü il tarixdə keçirilən BMT İnsan Hüquqları Şurasının 25-ci Sessiyasının 26-cı iclasında şifahi bəyanatla çıxış etmiş və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində öldürülən uşaqlarla bağlı məsələni beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. Bu məsələ həmin iclasda iştirak edən Ermənistan hökumətinin nümayəndə heyətinin etirazı ilə qarşılansa da, Azərbaycan tərəfinin layiqli cavabı ilə müzakirə yekunlaşmışdır. Həmin iclasdan sonra Alt Komitə Azərbaycan Ombudsman təsisatının statusunu endirmək məqsədilə Ombudsmanın müstəqilliyini sorğulayan növbədən kənar xüsusi qiymətləndirmə prosesi başlatdı. Ombudsman Aparatı tərəfindən təqdim edilən əsaslı arqumentlərlə Komitənin 2014-cü il tarixli qərarında Ombudsmanın fəaliyyətinin Paris Prinsiplərinə uyğunluğu bir daha təsdiq olunaraq onun A statusu saxlanılmış oldu.

GANHRI tərəfindən hazırlanmış bir sıra sənədlərdə Azərbaycan Ombudsmanının fəaliyyəti yaxşı təcrübə kimi qiymətləndirilmişdir. GANHRI-nin 2017-ci ildə hazırladığı "Dayanıqlı İnkişaf Məqsədlərinə çatımlılıqda Milli İnsan Hüquqları İnstitutlarının rolu" mövzusundakı hesabatda Azərbaycan Ombudsmanının aidiyyəti sahədə fəaliyyətinə yer verilmişdir. Hesabatda qeyd edilib ki, Azərbaycan Ombudsmanı Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Əlaqələndirmə Şurasının üzvüdür və vətəndaş cəmiyyəti ilə hökumət arasında körpü rolunu oynayır. 2017-ci ildə keçirilən konfransda Ombudsman DİM-lərin reallaşması üçün əməkdaşlığın vacibliyini vurğulayıb. 14-cü Beynəlxalq Ombudsmanlar Konfransında qəbul edilən

Bakı Bəyannaməsi isə DİM-lərin təşviqinə və insan hüquqlarının təmininə dəstək verir.

Xüsusilə, 2018-ci ildə BMT-nin Qadınların Vəziyyəti Komissiyasının Nyu-Yorkda keçirilən 62-ci sessiyasına GANHRI tərəfindən təqdim edilən “Milli İnsan Hüquqları İnstitutlarının ucqar yerlərdə yaşayan qadın və qızların imkanlarının genişləndirilməsi və gender bərabərliyinin təşviqində rolu” mövzusundakı hesabatda Azərbaycan Ombudsman İnstitutunun qadın hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti müsbət təcrübə kimi qeyd edilmişdir.

Ombudsman mütəmadi olaraq GANHRI-nin illik iclas və konfranslarında iştirak edir, tematik mövzular üzrə məruzələrlə çıxış edir.

GANHRI-nin 2023-cü ildə Cenevrədə keçirilən illik iclasında Ombudsman iştirak etmiş, işgəncə və pis rəftarın qarşısının alınması mövzusunda aparılan müzakirələrdə çıxış edərək aidiyyəti sahədəki fəaliyyəti barədə məlumat vermişdir.



Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyəti 2024-cü ildə GANHRI-nin Cenevrə şəhərində keçirilən illik iclası çərçivəsində "Biznes və insan hüquqları: Milli insan hüquqları təsisatlarının rolu və təcrübələri" mövzusunda konfransında iştirak etmişdir. Ombudsman çıxışında biznes və insan hüquqları sahəsindəki fəaliyyətini, BMTİP ilə əməkdaşlıq və milli qiymətləndirmə sənədinin hazırlanmasını vurğulayıb. O, həmçinin BMT-nin "Biznes və insan hüquqları sahəsində Rəhbər Prinsiplər"inin tətbiqi üzrə görülən işlərdən bəhs edib. Sessiya zamanı mövcud tendensiyalar və çağırışlar müzakirə edilib, müsbət təcrübələr paylaşılıb.

